# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 25 dekabr tarixli, 140 nömrəli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası gömrük sisteminin büdcədənkənar inkişaf fondu haqqında Əsasnamə və fondun vəsaitinin xərclənməsi Qaydaları»nda dəyişiklik edilməsi barədə

## Qərar № 54

***Bakı şəhəri, 20 aprel 2011-ci il***

«Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi, gömrük işi sahəsində prosedurların sadələşdirilməsi və şəffaflığın artırılması ilə əlaqədar bəzi tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 25 fevral tarixli, 388 nömrəli Fərmanının 4.1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 25 dekabr tarixli, 140 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 6, maddə 549; 2000-ci il, № 6, maddə 473; 2005-ci il, № 8, maddə 782) ilə təsdiq edilmiş «Azərbaycan Respublikası gömrük sisteminin büdcədənkənar inkişaf fondu haqqında Əsasnamə və fondun vəsaitinin xərclənməsi Qaydaları»nın 3.1-ci bəndinə aşağıdakı məzmunda on üçüncü abzas əlavə edilsin:

- *«inkişaf fonduna daxil olan vəsaitin 25 faizinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin aylıq vəzifə maaşlarına əlavənin verilməsinə;».*

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***Artur RASİ-ZADƏ***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (30 aprel 2011-ci il, № 4, maddə 369 («VneshExpertService» LLC).***

*© «VneshExpertService» LLC*